# ODDAN KEÇMƏYİN YANĞISI,

## *yaxud şair Rafiq Musanın «Od içindən keçən yol» poemasının ikinci hissəsi üzərində düşüncələr*



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

*(Əvvəli ötən sayımızda)*

Həyatı görən, başa düşən müəlliflərin düşüncəsində bir mükəmməllik olur. Onlar sanki həyatın künc-bucağında olan nə varsa, hamısını yaxşı görür və gördüklərini ustalıqla sözə gətirməyi bacarırlar. Mən həmişə Xalq şairi Nəriman Həsənzadənin ən mürəkkəb mətləbləri çox sadə və səmimi bir dillə yazıya gətirməyini heyrətlə müşahidə etmişəm. O, çox dərin, psixoloji məqamları elə sakit-sakit, sanki emosiyasız, həyəcansız yazıya gətirir ki, elə hesab edirsən, adi bir söhbət dinləyirsən. Ancaq bu adi söhbət oxucuda dərin təəssürat yaradır. Şairin təsvir elədiyi hadisələr, əhvalatlar, ayrı-ayrı obrazlar sənə elə doğmalaşır ki, sanki onlarla bir zamandasan. O hadisələrin içindəsən, o adamları yaxşı tanıyırsan. Bir sözlə, şair səni təsvir elədiyi zamanın içərisinə aparır.

Mənə elə gəlir ki, bu şairin istedadı ilə bağlıdır, onun müşahidə imkanlarının genişliyi ilə bağlıdır. Həyatı yaxşı bilən şair müasirləri ilə qəhrəmanları arasında çox ustalıqla körpü yarada bilir. Bu mənada, mən «Kredo» qəzetində şair Rafiq Musanın «Od içindən keçən yol» poemasını oxuyarkən özümü şairin dostları ilə birgə Qarabağa səyahət edənlərin sırasında gördüm. Zənnimcə, şair oxucusunu özü ilə birgə səfərə apara bilirsə, bu, onun təsvir inandırıcılığından irəli gəlir, yaradıcılıq imkanlarının gücündən irəli gəlir. İndi belə düşünmək olar; şair səfərə gedib, o, nələri görüb, nələri yazıb. Bunun oxucuya nə kimi əlavə təsiri ola bilər? Bu, artıq yaradıcılıq işidir, şairin məharəti ilə bağlıdır ki, o, yaradıcılıq əhatəsində təkcə öz qəhrəmanları ilə deyil, oxucuları ilə də bir yerdədir.

R.Musa kifayət qədər səriştəyə dolmuş, ədəbi təcrübəsi olan şairdir. Yoxsa, asanlıqla səyahətini qələmə ala bilməzdi. Əlbəttə, bu, bizə belə gəlir. Sözlər, misralar elə rəvan, elə əhatəlidir ki, az-çox poetik istedadı olan oxucuya elə gələ bilər ki, o da bu cür sadə və asan yaza bilər. Amma yazının yazıldığı, düşüncənin sözə çevrildiyi məqama gələndə bütün çətinliklər göz önünə gəlir və qələm kağızın üzərində hərəkət eləmir. Biz o zaman şairin kimliyinə qibtə etməli oluruq.

Rafiq Musanın «Od içindən keçən yol» poeması sadəcə bir dostunun tale yoluna işıq salmır, bir yaradıcı adamın yaşadığı iztirabları diqqətə çəkmir; bu əsər ümumi Azərbaycan cəmiyyətinin vətən, torpaq, milli təəssübkeşlik hisslərinin maliyyətinə işıq salır. Ümumiyyətlə, hər hansı bir əsər konkret olaraq bir obrazdan bəhs edəndə, eyni zamanda cəmiyyətin bütün mənəvi mühitini əhatə etməsə, onda həmin əsərin heç bir dəyəri olmazdı.

«Od içindən keçən yol» əsrində şairin yaxşı tanıdığı dostu, müasiri, Azərbaycan cəmiyyətində kifayət qədər tanınan Əli Rza Xələfli obrazı təkcə bir şəxs deyil, o, həm də Qarabağ ağrıları ilə yaşayan Azərbaycan cəmiyyətinin mənəvi yükünü çiyinlərində daşıyan ümumi ziyalı obrazıdır. Onun təbiətindəki ziyalılığı qədərincə vermək üçün müəllif onunla görüşə can atan dostlarının hissləri və həyəcanları ilə məqsədini ifadə etməyə çalışır.

Bu əsər R.Musanın sıradan bir əsəri deyildir. Qarabağ xronikasının ayrı-ayrı iinsanların təbiətində, varlığında əks-səda verən, mahiyyətini ifadə edən bir əsərdir. Ona görə də biz əsərə sadəcə səfər qeydləri kimi baxmırıq. Əsərdə ayrı-ayrı yer, məkan adları mühüm tarixi hadisələri yaddaşımızda canlandırır.

Zənnimcə, 2016-cı ildəki Lələtəpə əməliyyatı hər bir Azərbaycan vətəndaşının yaxşı yadındadır. Çünki həmin əməliyyat zamanı Azərbaycan xalqı Ali Baş Komandanın ətrafında birləşmək inamında olduğunu göstərən çox tutarlı bir tarixi fakt idi.

Lələtəpə döyüşləri başlandı. Azərbaycan Ordusunun ilk əzələ gücü nümayiş olundu. Xalqın prezidentə inamı öz əksini tapdı. Xalq şəhidləri ilə qürur duydu. Vətən üçün haracan desən daha üstün ağrı və acılara dözə biləcəyini nümayiş etdirdi.

Biz R.Musanın məlum əsərində Lələtəpəni təkcə məkan kimi görmürük. Xalqın dilində və düşüncəsində Lələtəpə sanki canlı bir obraz olaraq görünür. Çünki müəllif Lələtəpənin özünü bir qəhrəman timsalında ttəsvir edir. O, öz dostları ilə birgə «Lələtəpənin yanından keçərkən» yazdığı düşüncələrində oxucu üçün belə bir təsəvvür imkanı yaradır ki, o, əzəmətli bir xalq qəhrəmanıdır. O, Lələtəpəni tarixə yazılmış bir qəhrəman kimi görür.

Sözün dəyəri, qiyməti də orasındadır ki, xalqın yaddaşında olan obrazı oxucu qədərincə görmək imkanı qazansın. Bu, artıq şairin özünüifadə imkanları ilə bağlıdır. O, Lələtəpəni necə görür, Lələtəpə haqqında nə düşünür və gələcək nəsillər Lələtəpəni necə yadda saxlayacaq. R.Musa hər halda sözənən yeni məqamına Lələtəpə ilə bağlı olaraq belə başlayır:

Uzaqdan görünən Lələtəpədi,
Tarixə yazılıb qəhrəman adı.
Təpələr bürünüb yaşıl örpəyə,
Gəlib - gedənlərin marağındadı.

Salam, Lələtəpə! Xoş gördük səni,
Bizim səfərimiz Cəbrayıladı.
Səninlə bağlıdır ilk qələbəmiz,
Biz burda məhv etdik yağını-yadı.

Yeri yox, biz sənə təpəsən desək,
Təpələr dağ olub zirvələnibdi.
Səninlə görüşə bu səhər çağı
Qardaşın gəlibdi, dostun gəlibdi.

Döyüşlər hər şeydən xəbər verirdi,
Sudan duru idi, aydan da arı.
Düşmənin adından minnətə düşdü,
Qeyrətsiz düşmənin havadarları.

Şəhidlik zirvəsi şəhidlərindir,
Sən də varlığınla o zirvədəsən.
Bizim qazilərin çiyinlərində
Təpə yox, dağ olub zirvələnmisən.

Adama nə qədər canlı, duyğulu təsir bağışlayır. Müəllif Lələtəpəyə Dədə Qorqud sayağı salam verir, ona ehtiram göstərdiyini bəyan edir. Bu, əlbəttə, R.Musanın söz imkanları ilə bağlıdır. Əli Rza Xələfli onun məhz «Od içindən keçən yol» poeması ilə bağlı qısa qeydlərində doğru olaraq yazır: «İstedadlı adamın düşüncəsində Söz xəmir kimi yoğrulur ... ona poetik forma və məzmun vermək ilahi güc bəxş olunmuş sənətkar üçün heç vaxt çətin olmur. Ona görə də Rafiq Musa tükənmir... bütün varlığı ilə sözlə və sözdə yaşayır. «Od içindən keçən yol» poeması bir şairin real həyata yaxınlaşmaq imkanlarının təsdiqidir. Sənətkarın təsvirlərinə diqqət elədikcə təkcə onun səfər boyu müşahidələrini görmürük. Biz sənətkarın illər boyu ruhuna, varlığına yığılmış həsrət, hicran notlarının iztirablarda yaşamağını görürük. R.Musa çox böyük məharətlə sanki sözü əridərək bəndlərin qızıl külçəsinə çevirir. Axı, külçə heç kimə lazım deyil, qızıl zinətə çevrilməli, zərgər əlindən keçməli, müəyyən forma almalıdır və bu mənada, R.Musanın fikirləri, düşüncələri həmin qızıl külçələrdən oxucu düşüncəsinə incilər şəklində yol alır. Ayrı-ayrı təsvirlər oxucu qəlbini ovsunlayır, ruhunu oxşayır. Şair üçün Lələtəpənin təsviri əslində, vətənin təsviridir. Çünki hər bir əlamət lap elə Lələtəpədə ucalacaq abidə, qürurlu görünən dağın özü nə qədər Lələtəpədirsə, bir o qədər də Vətəndir, Azərbaycandır. Zənnimcə, biz R.Musanın poemasını bütövlükdə bir Qarabağ müharibəsinin xronikası kimi də qavraya bilərik. Çünki poemanın ayrı-ayrı yerlərində müəllifin şəhidlərlə bağlı ricətləri könül titrədən səviyyədə özünü göstərir. R.Musanın təbiətində xüsusi bir humanizm var, insana sevgi hissi var. O, çox arzulayır ki, Lələtəpə Azərbaycanın Vətən müharibəsi tarixinin proloqu kimi yaddaşlarda yaşasın. Zənnimcə, bu, çox əhəmiyyətli bir məsələdir. Şair Vətənin nəinki hər bir qarışını, həm də hər bir anını əbədiləşdirməyə can atır və bunu da təbii qəbul etməliyik. Çünki bu, şairin vətəndaşlıq missiyasıdır. Vaxtilə macar şairi Şandor Petefi deyirdi ki, məhəbbət üçün hər zaman keçərəm öz canımdan, Vətənimçün keçərəm məhəbbətdən. Düşünürəm ki, çox müdrikcəsinə deyilmiş fikirlərdir. Çünki Vətən anlamı daha genişdir. Vətən olmayan məmləkətdə məhəbbətin də səmimiyyəti çətin olar». Zənnimcə, Ə.Xələflinin bu geniş, əhatəli ədəbi müşahidə motivlərinə nə isə əlavə etməyə lüzum qalmır. Hər halda mən də deməliyəm ki, Lələtəpənin sabahını bütün aydınlığı ilə görürəm. Çünki Ə.Xələflinin özü də poemada təsir olunan Lələtəpənin gələcəyini bütün aydınlığı ilə görür. Ona görə də geniş və əhatəli düşüncələrə rəvac verir. Mən də Lələtəpəni şairin təsvir etdiyi kimi qüdrətli, qeyrətli bir Azərbaycan oğlu kimi görürəm. Əhsən deyirəm o şairə ki, dağı, dərəni, təpəni Vətənin hər qarışını canlı bir oğula bənzətmək imkanındadır. İndi qoy oxucu özü desin - haracan düz deyirəm:

Bu yurdun əyilməz oğullarıtək
Qoşuldu döyüşə dağ da, təpə də.
Qalib əsgərlərin məğrur heykəli
Sabah ucalacaq Lələtəpədə.

Dönüş nöqtəsidi müharibənin,
Bu yerdən başlayıb ilk qələbəmiz.
Burda ucalarsa əsgər heykəli,
Qürurlu görünər Lələtəpəmiz.

Vətənə verilən ən böyük dəyər
Qalib əsgərlərin savaşındadı.
Tarixi qələbə unudulmayıb,
"Aprel döyüşü"nün yaddaşındadır.

Dağlara arxadır əsgər oğullar
Kimsə əyilmədi yurd savaşında.
Mərdanə dayandı düşmən önündə,
Çiçəklər boy atır Vətən daşında.

Böyük qələbəmiz burdan başladı,
Yol saldı, ev tikdi, olmadı çətin.
Vətənə sevgisi tükənən deyil
Daşı-daş üstünə qoyan millətin.

Şairdəki nikbinliyə bax, Lələtəpədəki qələbənin özünü əslində, sonrakı müharibənin qələbəsi kimi görür. Onun düşüncəsinə görə qələbənin özü bir evdir, saraydır, onu təkcə alın təri ilə yox, yəni candan keçən, güllələrin yerindən sızan qan kimi təsəvvür etmək - bu, nə qədər təsirlidir. Şair sözün həqiqi mənasında sanki Lələtəpənin özündə doğulur, orda dünyaya boy gstərib. Bu gün də elə danışır, elə təəssürat yaradır ki, o, Lələtəpə ilə canbir qəlbdir.

*(Davamı 11-ci səhifədə)*

*(Əvvəli 10-cu səhifədə)*

R.Musa Lələtəpə ətəyindəki Cocuq Mərcanlını da yaddan çıxarmır. Bir toponomik ad kimi Cocuq Mərcanlıdakı adın özündə ehtiva olunmuş böyüklüyü - çocuqluğu qədərində öz gücündə göstərə bilir. Zənnimcə, bu şairin düşüncə imkanlarının genişliyinə dəlalət edir. Şair göz dağı olmağın bir neçə mahiyyətini verir. Əlbəttə, göz dağının faciəli, ağrılı tərəfi də var. Amma şairin düşüncəsinə görə göz dağı olmağın bir tərəfi də düşmən qarşısında yenilməzlikdir, qüdrətdir, gücdür:

Hər vaxt göz dağıyıq düşmənə, yada,
Yenidən alışır ocaqlarımız.
Boy atıb hər biri bir igid olub
Cocuq Mərcanlıda "cocuqlarımız"

Budur, qələbənin verdiyi töhfə,
Bu yerlər bir daha görməyəcək qış.
Hər qarış torpağı əzizdi bizə,
Bu günə min şükür, min dəfə alqış!

Ötəri olmasın görüşlərimiz,
Neçə ki varsınız, bizlər də varıq.
Səninlə bu görüş son olmayacaq,
Biz daim görüşmək arzusundayıq.

Bir zaman bu yollar alov içində,
Haqqın - ədalətin sorağındaydı.

Güllübulaq kəndindəndir.ö eşitdiyimə görə, həmin kənddən çoxlu adsanlı adamlar çıxıb. Alimlər, müdriklər, aşıqlar, şairlər... şübhəsiz, insan qəlbinin fatehləri olan bu adamların sırasında Rafiq Musa kimilərinin ayrıca yeri var. Çünki o, Vətəndən min kilometrlərlə uzaqda olsa belə, əslində, öz yerinin, yurdunun həsrətini qələmə alır. Azərabycanın hər hansı bir qarışının onun üçün elə doğulduğu yer olması, zənnimcə heç bir oxucuda şübhə doğursaz.

İndi gələk o yerə ki, yenə səyahət davam edir və ornun öz dostları ilə mükaliməsi bizi bir daha mətnin özünə çağırır:

Mircəlal gözünü bayırdan çəkdi:
- Bəlkə, Əli Rzaya telefon açaq?
Bizim söhbətimiz yadından çıxar,
Qoy evdən-eşikdən düşməsin "qaçaq".

Şairə zəng etdi Mircəlal qağa,
Onların sğhbəti dağıarı aşdı.
Yerbəyer etdilər söhbətlərini,
Rahat nəfəs alıb, ssğoılaşdılar.

Bu yol Cəbrayıla aparan yoldu,
Bu yoldan qalmayıb kimsə narazı.
Uzaqdan-uzağa cəlb etdi bizi
Daş sütun üstündə görünən yazı.

"Cəbrayıl" yazılıb bu daş sütuna,
Bu sözlə bölüşdük sevincimizi.

Yerlə yeksan olub Mehdili kəndi,
Qalmayıb Tatarda daş üstündə daş.
Bir zaman Mahmudlu göz oxşayardı,
Onun da dərd-səri ağırdı, qardaş.

Tarixə qovuşub İsaqlı kəndi,
Gödəkli, Quşçular gör nə gündədi!
Bu kəndlər necə yol boşalıb-dolub,
Yəqin, xoş günləri hələ öndədi.

Bəzən şairin təsvirlərində onun ədəbi qəhrəmanının yaşam yolu ilə - tərcümeyi-halı ilə bağlı yer, məkan adlarına rast gəlirik. Bu da ondan irəli gəlir ki, şair öz qəhrəmanını xüsusi sevgi ilə yaddaşına yazıb, onu böyüdən mühiti yaxından öyrənib. Bu mühitdəki abadlığı tarixdəki yaşantısı ilə yaddaşına yazıb. Elə ona görə də biz poemada müxtəlif yer, məkan adlarını gördükcə əsərin ədəbi qəhrəmanını daha əhatəliliyi, daha möhtəşəmliyi ilə təsəvvürümüzdə canlandıra bilirik. Doğrudur, şairin poetik vüsətlə qələmə aldığı yer-yurd adları indi ancaq tarixi xəritədə görünə bilər. Erməni vandalları həmin yerləri, həmin abad kəndləri yerləyeksan edib, dağıdıb, talayıb, yox günə qoyub. Əslində, elə şairin təəssüfü də elə bu vandallıqla bağlıdır.

R.Musa maraqlı müəllifdir. Çox yaxşı bilir ki, Cəbrayıl rayonunun Tatar kəndindən olan hər hansı bir şəxs öz kəndinin adını bu poemada

mik T.Hacıyev, professor Q.Kazımov, dosent, tanınmış alim K.Hacıyev, rəssam B.Hacıyev... bir çox başqaları Ə.Xələfli sənətinin ədəbi qəhrəmanları kimi onun özünün yazdıqlarında da kifayət qədər aydınlığı ilə yer alıb. Bu mənada, R.Musanın sadaladığı kənd adlarının heç biri Ə.Xələfli təbiəti üçün yad deyil.

Nəhayət, onu da deyək ki, R.Musa insansızlıq faciəsinə düçar olan əraziləri, biçənəkləri, bulaqları, kəhrizləri də unutmur. Biz bütün təsvirlərində onun şair ağrılarını duyuruq:

Kimsəsiz qalıbdı biçənəklər də,
Burda buludların qaradı qanı.
Xəyalım dolanar çən-duman kimi
Səhraya döndərər könül dünyamı.

Elə bil, bu yerlər olmayıb binə,
Viranə kəndlərin daş ağrısı var.
Çoban tütəyinin duyulmur səsi,
Örüşdə görünmür qoyun-quzular.

Ömür-gün bağlıdı bəxtə-qismətə,
Daşın-torpağın da öz taleyi var.
Quru ağacların qalmayıb halı,
Barından olubdu barınan bağlar.

Hər işi yerbəyer eləmək çətin,,
Əlində olmayan gümana bağlı.
Olmuş-olacaqlar tale işidi,
Burda abadlıqlar zamana bağlı.

# ODDAN KEÇMƏYİN YANĞISI,

## *yaxud şair Rafiq Musanın «Od içindən keçən yol» poemasının ikinci hissəsi üzərində düşüncələr*

Dırnaqla, diş ilə yığdıqlarımız
Zalım düşmənlərin tapdağındaydı.

Var olsun Vətənin ər oğulları,
Atlandı, atıldı alova-oda.
Bu yerdə düşmənlə savaşa girdi,
Dəmir yumruğunu göstərdi yada.

R.Musa 44 günlük müharibə dövründə yaranmış məşhur hərb terminini də unutmur. Dəmir yumruq onun poemasında xüsusi bir obraz kimi təzahür edir. Həqiqətən şairin fantaziyası olmasa, onun təsvir imkanları da çox məhdud imkanlarda bitər. Amma R.Musa ən xırda detallara diqqət edərək onları poetik sözün təsvir əhatəsinə gətirərək xüsusi bir görkəmdə, biçimdə oxucuya çatdırır:

Bu yerlər bir daha tapdanmayacaq,
Yağışlar yuyacaq tapdanan izi.
Dünyaya qol açıb uzanan yollar
Xoşbəxt gələcəyə aparır bizi.

Biz R.Musanı təkcə sıradan bir şair kimi «Od içindən keçən yol» poemasında görmürük. Onu Azərbaycan cəmiyyətinin mənəvi mühitində bütün imkanları ilə görə bilirik. Çünki sözlə rəftar etməyi bacarır. Sözün gücünü görə bili rvə sözü bütün gücü ilə sənətin dilində ehtiva edir.

R.Musa nikbin adamdır. O, inanır ki, Azərbaycanın gələcəyi inamlı əllərdə olacaq və bu yerlər, bu yurdlar bir daha tapdanmayacaq.

Axı şair səfərdədir. O, yol boyu təəssüratlarını yazır, gördüklərini yazır, üstəlik zaman-zaman görmək istədiklərinə sevgisini sözə gətirir. Yer də, yurd da, torpaq da onun çün bütövlükdə Vətəndir. Bildiyimə görə R.Musa Qərbi Azərbaycanın məşhur

Sıxdıq sinəmizə bu daş sütunu,
Ötənlər bir daha kövrəltdi bizi.

Elə bil, daş yağıb dərəyə, düzə,
Oğulsan, gəl indi bu yeri tanı?!
Çöllərə baxıram, bağrım yarılır,
Hanı Cəbrayılın kəndləri, hanı?

Nə qədər təsirli sualla bitir. Poetik mətn sanki ittiham edir. Həqiqətən Cəbaryılın adlı-sanlı, mənəvi ucalığı ilə fərqlənən kəndləri hardadır? Qısaca yol işarələri var. Amma kəndlər yoxdur. Nə edəsən? Hardan bir möcüzə istəyəsən ki, şairin arzuladığı və görmək istədiyi Xələfli kəndini Tanının gözəgörünməz əlləri əvvəlki əzəmətində geniyə qaytarsın. Tarixi isə geriyə qaytarmaq, əlbəttə, mümkünsüzdür.

Şairin təəssüfləri bizi də təsirləndirir. Axı hər birimiz öz yerimizdə, yurdumuzda müəyyən arzuların daşıyıcısıyıq. Biz istəyirik ki, arzularımızınq başa varmağını öz yerimizdə, yurdumuza görək. Amma görə bilirikmi? Həyat bizim düşündüyümüzdən də daha amansızdır:

Kimsə yaşamadı arzularını,
Dağıldı ev-eşik, bəxt tinə düşdü.
Qaçqınlıq, köçkünlük bir də qəriblik
Bu elin-elatın bəxtinə düşdü.

Əlbəttə, bu yerlər belə olmayıb,
Hər tərəf göz dağı, ürək ağrısı.
Adını çəkməyə dilim də gəlmir,
Salamat kəndmi var sadalanası?

Uzaqdan seyr edib, baxmağa nə var
Haqlının duası Tanrıya yetsin.
Ünvanı bilinmir kəndin-kəsəyin,
Evmi var, yiyəsi evinə getsin?!

görəndə əsərin ədəbi qəhrəmanı ilə bağlı xatirələri də yada salacaq. Yaxud İsaxlılar, Mehdililər, Gödəklilər, Nüsüslülər, Quşçularlılar, Aşıq Məliklidən olanlar... bu kəndlərin, şübhəsiz yeni gələn nəsilləri ata-babalarından eşitdiklərini yaddaşlarında bərpa etməyə çalışacaqlar və onlar əsərin ədəbi qəhrəmanını - Əli Rza Xələflini təzədən tanıyacaqlar. Ən yaxşısı, əsərin oxunuşunu davam etdirməkdir:

Necə gəlib-getsin qonaq-qarası,
Kol basıb yol-izi, bərəni-bəndi.
Aşıq Məliklinin suyu sovulub
Dərdinə bələnib Soltanlı kəndi.

Deyəsən, od yağıb Şükürbəyliyə,
Düyünə düşübdü quşların səsi.
Nüsüsdə salamat evlər qalmayıb,
Nə divar fərlidi, nə də kölgəsi.

Qapısız-bacasız uçuq evlərin,
Qədrini bu kənddə yaşayan bilər.
Əl vurmaq olarmı daşa-divara
Mürgülü divarlar üstünə gələr.

Bizim Xələflidi bu kənd, deyəsən,
İçinə çəkibdir ahu-zarını.
Dərdini gizləyib viranəlikdə,
Yaşayır ömrünün acılarını.

Tanınmaz olubdu kəndə gedən yol,
Bu yolda yolçular yolundan olar.
Elə bil, əvvəldən heç olmayıbdı,
Bu kəndi o kəndə aparan yollar.

Doğrudur, kəndlərin təsvirində xəritə baxışından nizamsızlıq diqqəti cəlb edir. Amma müəllif yaxşı bilir ki, Soltanlə kəndinin görkəmli alimləri Əli Rza Xələflinin həyatında mühüm mərhələ kimi öz izlərini qoyublar. Görkəmli şair S.Əsəd, akade-

Tarixi çox zaman daşlara yazdıq,
Qayalar varlığım, can sirdaşımdı.
Bu adi daş deyil, daş sütun deyil,
Göylərə ucalan daş yaddaşımdı.

Zənnimcə bu yerdə Ə.Xələflinin qeydlərini də yada salmaq yerinə düşər: "Müəllifin ricətləri kifayət qədər təsirlidir. Doğrudur, konkret ad çəkməsə də, "tarixi çox zaman daşlara yazdıq" deməklə qədim türkün tarixini yada salır. Axı həqiqətən qədim türk özünün hərbi şücaətlərini də, yaşam tərzini də Orxon Yenisey abidələri ilə əbədiləşdirib. Həqiqətən Sibirdə, Orxon Yenisey sahillərində, Monqolustanda, Orta Asiya çöllərində, eləcə də Naxçıvan, Kəlbəcər, Abşeron ərazilərindəki qayaüstü yazılar qədim türkün yazılı tarixi olaraq qavranılır. Bu mənada, R.Musa doğru deyir ki, biz tarixi daşlara yazdıq". Düşünürəm ki, Ə.Xələflinin bu qeydləri R.Musanın düşüncə imkanlarının bütün üfüqlərinə qədərincə işıq salmaq gücündədir. Mən R.Musanın poetik yaradıcılığını, poema janrındakı ustalığını qədərincə təqdir edirəm.

R.Musanın "Od içindən keçən yol" poeması təkcə bü günümüz yox, sabahısız üçn də gərəkli əsərdir. elə ona görə də mən R.Musanın bu poemasını bütün əhatəliliyi ilə oxuculara çatdırmaq üçün publisistik düşüncə imkanlarımdan yararlanmağa çalışdım.

Söz, sənət həyatımızın mənasıdır. Qələm adamları, söz adamları yazmırlarsa, demək, yaşamırlar. Mən Rafiq Musanın "Od içindən keçən yol" poemasını oxuyanda bir daha təsdiq etdim. O, həyatının mənalı çağlarını yaşamaqdadır.

*(Davamı var)*